ƏLİ RZA XƏLƏFLİ

# BİR BÜLBÜLÜN TÜRKÜSÜ...

*(Gənc şərqşünas Əbilin xatirəsinə...)*

*düşüncələr poeması*



## *I hissə*

Bu bağ sənin bağındır,
Nəğməni oxu, bülbül...
Çək döşünə bəxtini,
Var azı, çoxu, bülbül...
Qanlıca qanıq gələ,
Neyləyər qınaq belə.
Dərdinə qonaq elə,
Sən acı , toxu , bülbül...
Ha çırpına torunda,
Ütülər öz qorunda...
Üzə çıxar sorunda
Yovşanlı qoxu , bülbül...
Əyirmisən teşini,
Uzatmısan işini,
Zamanın gərdişini,
Göyündə toxu, bülbül...
Səsin qəlbinə varar,
Ruhu tufan qoparar,
Xələflini aparar,
Əbədi yuxu , bülbül...

Həyatımın rəngləri...neçə adın sırası,
Hər adın öz gücü var... inadları qırası...

Bir məbəd tanıyırdım, yolu, izi, sadəydi,
Bu müdriklik məbədi İmamverdi Dədəydi...

Sözündə, sənətində ustadlıq yolu vardı,
Nəhəng fikir nəhriydi, şaxəli qolu vardı...

Bir gözü Azər Turan, bir gözü Etibardı,
Bu gözlərdən dünyaya, Dədə gözü baxardı...

İmamverdi Dədədən yadigar inci qaldı,
Azər Turan qəlblərdə əbədi məskən saldı...

Əbədi bir işıq da qəm evində nurlanar,
BirTuran sevdasında alovlanar, qorlanar...

O sevda türküsünün nəğmələri dillənər,
Baş qoyduğu torpağın zərrələri güllənər...

İmamverdi Dədənin cənnətdəki bağında,
Əbil də söz bülbülü... ötər öz budağında.

Aqillər arasında kimsələrin kimsəsi,
Qönçələrə can verər onun həyat nəfəsi

Ağsaçlı bir qoca da dinlədikcə bülbülü,
Gözlərindən yaş axır, şeh isladır hər gülü...

Bülbül də nəğməsini saxlamır hey ötürdü,
Bu nəğmənin yanğısı dörd bir yanı ütürdü...

Ərşi əla yanına çağırır hər bir kəsi,
Çağırıb cəm eləyir bülbülün qəmli səsi...

Yaşayan sevdaların eşqinə oxuyuram,
İki cahan evinin bəxtini toxuyuram...

Sinəmi Muğan bildim - quzu dərdlər gürnacı,
Bəxtimə yazılıbmış Şəhriyarın qəm tacı...

Kimsə mənə deməsin səsində qəm ladı var,
Onsuz da hər bir səsin acı, şirin dadı var...

Mənim könül dünyamda Füzuli əmanəti,
Qoruyar öz yerini bu Tanrı zəmanəti...

Mənim könlüm müəllim-- Xaqani məktəbimdir,
Vətən eşqim ilhamım, dilim çağlar təbimdir...

Dədə yurdu qəlbimdə Nizami ocağıdır,
Xəzər dərya ruhumun dalğalı bucağıdır...

Yunis Əmrə, Yəsəvi dilimin ayəsidir,
Qırxların məclisində ruhumun sayəsidir...

Cəlaləddin Rumidən tirmə aldım, şal aldım,
Məsnəvidən xəzinə, karvan karvan mal aldım..

Nəimi, Nəsimini sözümə çıraq bildim,
İbrahim Həqqini də düz yola soraq bildim..

Ey bülbül, qəm eviniabad eylə, şad eylə,
Hər qəmin sorağını al özünə ad eylə...

Əbilin gənc qəlbi də müdriklərdən pay aldı,
Zəkalardan ziyası Günəş aldı, Ay aldı...

Deyirdilər dünyaya yeni Bəhmənyar gəlib,
Fikirdə, düşüncədə özü Şəhriyar gəlib...

Pöhrəsidir ruhundan köklü Çinar babanın,
Sənətində, sözündə təzə bahar babanın...

Nizamidən hikməti, Tusidən əxlaq aldı,
Bistami sarayının dərgahına ucaldı...

Nəyi necə yazmışdı...nəyi necə yazardı,
Həzrəti Yusif özü "haqdan gəlmiş" yozardı...

Sədi necə doğular , isti qucaq olmasa,
Hafiz hardan yaranar özül ocaq olmasa...

Düşüncələr çəməni söz gülləri bitirər
Haqqın çağlar bulağı Əbilləri yetirər...

Əbil mənə bağından fikir gülləri dərdi,
Dərdiyi hər gülü də günəş telli əsərdi...

Az ömürdə yazdığı çiçəkli bağ yaratdı,
Əbədi ayrılığı bir yanar dağ yaratdı...

Yel əsdi, tufan qopdu, çox dərələr dağ oldu,
Yıxıldı könül evi, sinələr dağ-dağ oldu...

Dedilər kimdir görən "burdan bir atlı keçdi",
Şığıdı göy üzündən "atı qanadlı keçdi" ...

Bir bülbül çırpınırdı budaq üstə, gül üstə,
Həzin yağış yağırdı duman üstə, tül üstə...

Əbilin son nəfəsi uçdu uzaq illərə,
Yaxşı yaman içindən adı düşdü dillərə...

Sevdalı könüllərdə bir əziz mehman qalar,
Yüz yaşlı Müşfiq kimi əbədi cavan qalar...

Bilirəm ki, hər insan həyatın bir rəngidir,
Doğmalar qəlbimizin ritmidir, ahəngidir...

Tədqiq etdi, öyrəndi aqilləri inadla,
Tanındı gənc filosof el içində bu adla...

Əbədi sakin oldu fikirlərin dağında,
İmamverfi Dədənin uca şah budağında...

Yaşamaq həyat üçün iz qoymaq, yol açmaqdır,
Qaranlıqlar içində ziyası nur saçmaqdır...

Gündoğarın eşqinə yazılan kəlam olar,
İmamverdi Dədənin ruhuna salam olar...

## *II hissə*

Qaramıx kollarına əsirdir güllər axı,
Qanlıca bir tikana sinəni toxu , bülbül...
Yarımadın yazından güllər də soldu getdi,
Gözlərin tutulsa da, ətrini qoxu, bülbül...

Qönçələri don vurur, gülləri sazaq bükür,
Göylərin gözü dolur, dərdli yağışlar tökür,
Böyük Çölün üstünə kədər buludu çökür,
Gəl dağıt buludları, bir həzin oxu, bülbül...

Dağlardan yenib düzə, dumanlar tül əvəzi,
Sözümün qəm yağışı, küllüyə kül əvəzi,
Muğan tanrı bağıdır, yovşanı gül əvəzi,
Bu bəyazlıq üstündə dərdini toxu, bülbül

Hər kəs mənim sözümə baxar yandan ad verər,
Yaramın göynəmini görər , candan dad verər,
Qəlbimə məlhəm səsin ruhuma qanad verər,
Çəkilər gözlərimdən qərəmət , yuxu, bülbül...

Könül evin uçdusa dərdin dərindən dərin,
Harda yuva quracaq dünya boyu kədərin,
Sənin də qismətindir, bu dərdli nəğmələrin,
Arama yaxşı, pisi, nə azı, çoxu, bülbül...

*(Davamı 8-ci səhifədə)*

# BİR BÜLBÜLÜN TÜRKÜSÜ...

## *(Gənc şərqşünas Əbilin xatirəsinə...)*

*(Əvvəli 1-ci səhifədə)*

Yandırıb qəlbimizi odu siracı dünya,
Arzu istək çeynəyir tamahlar tacı dünya,
Açıb ilan ağzını dərdlərin acı dünya,
Nəğmən də doyurmadı bu acı, toxu, bülbül...

Qəmlərinin evində başa çəksən simsarı,
Ürəyi tel-tel olar, gülər qışı, baharı,
Özünə həmdəm bilsən bu Xələfli qəmxarı,
Qurbandır sənə deyər hər varı, yoxu , bülbül...

Gündoğar elə yerdir Günəş öpər dənizi,
Torpağın üzü gülər, nurlanar öz bənizi...

Böyük Çölün yaxası düymələnər sahilfə
Həzin həzin danışar, külək dinər sahildə...

Qədim Muğlar diyarı--Muğan bizim sinəmiz,
Döyünən ürəyimiz, bu can bizim sinəmiz...

Ulu Zərdüşt sözünü Muğan yadda saxlayıb,
Səməd Vurğun "Muğan"da alıb adda saxlayıb..
.
Muğan Muğan oldusa birini üç eyliyər,
Muğan tufan oldusa, üçünü heç eyliyər...

Ölməz Muğan dastanı hopub elin ruhuna,
Varlığı naxış vurub sözün, dilin ruhuna,

Şöhrətli, adlı hər kəs Muğanı ünvan bilib,
Muğanı varlığında əbədi bir can bilib...

Əbilin də boy atıb , böyüdüyü yer bura,
Bura Səhra, Dənizdir, Günəşdir baxsan hara.

Duyğulu Əbilimiz böyümüşdü bu yerdə,
Xəyalı qanadlanıb uçmuşdu üfüqlərdə...

Bir zaman bu yerlər də mənə beşik olmuşdu,
Muğanlı duyğularım varlığıma dolmuşdu...

Çiçək oldum, gül açdım Günəşli adasında,
Dalğaları oxudum dənizin sədasında.

İllər, aylar dolandı, yenə döndüm o yerə,
Təzim etdim qüruba, salam verdim səhərə...

Sözlərimlə üz tutub deyirəm Gündoğara,
Ürəklərə gün doğa, qaralıqlar ağara...

Qohumluq tellərini haqdan gələn pay bildim,
Sevgili insanların könlünü saray bildim...

Unudulmaz Xəlilin gözlərində nur vardı,
Qəlbi dəniz durusu, varlığı Gündoğardı...

Nəvələrim Arayın, Alayın hər birində,
Müdrik baba Xəlilin nuru var gözlərində

Muğan düzdür, hamardır, zirvəsi insanlardır
Zirvələrin zirvəsi Dədə bir ixtiyardır...

Əbədiyyət bağında saray qurub , taxt qurub,
Könüllərdə yaşarı tale qurub, baxt qurub..

Dədə qəlbi zirvədən çağlayan şəlalədir
Nəsil nəsil fidanlar hərəsi bir lalədir...

İmamverdi Dədənin Əbil yazı, baharı,
Fikirlər , düşüncələr aləminin söz barı...

Müdriklər harda olsa ocaq olub yörəsi,
İşıq olub, nur salıb şəcərəsi, törəsi...

Qibləgahdır Gəncədə Nizaminin ocağı,
Əzizləyir , saxlayır Azərbaycan qucağı,

İmamverdi Dədə də Muğanda Şəmsə döndü,
Adı dillərdə gəzən ürəklərdə döyündü...

Xəlil Rza Ulutürk ilham aldı Dədədən,
Qorxmadı, çəkinmədi xain xofdan , hədədən...

Zindanlardan keçsə də öz yolundan dönmədi,
Qəlbində yanan ocaq alovlandı, sönmədi...

Dədənin təmkinindən Ulutürk güc alırdı,
Savaşa meydan açıb, zamandan öc alırdı...

Dədənin timsalında xalqın özü danışır,
Gündoğarın, Muğanın canlı sözü danışır...

Yanan ocaq qorlanır, qığılcımlar yayılır,
Sinələrə köz düşür, yatmış başlar ayılır...

Namiq Hacı heydərli, -- Muğanın söz vulkanı,
Varlığında daşıyır böyük çölü, məkanı...

Kredonun kürkündən çıxan Ərmuğan da var,
Ad aldığı ocaqdan sözünü doğan da var...

Gündoğar qəzetinin adı mənə sorağı,
Deyirəm bundan sonra yenə yana çırağı...

Habil Əsəd yolunun işığı gündoğardı,
Ağ niyyətli işığı zülmətləri boğardı...

"Gündoğar"da Dədəyə hörmət gördüm hər zaman,
Dədə sözü gələndə dağılardı çən , duman,

Bizdən ayrı düşənlər hörmətlə yad edilir,
Kimdən nələr qalıbsa adına ad edilir...

Gündoğarda işıqlı simaların sayı çox,
Sayı çox olanların ziyasının payı çox...

Ustad Soltan Abbasın ömür yolu dastandır,
Yazdığı, yaratdığı "Büstan"dır, "Gülüstan"dır.

Həbib Həbiboğlunun hər sözü bir nəfəsdir,
İlhamıma yol açan sonsuz istək, həvəsdir

Ələvsətdən nə deyim, söz içində cızdağdır,
Daş əridən zəhməti sinəsində bir dağdır...

Sabir Rüstəmxanlının dostu Ələkbərin də,
Payı var Gündoğarın işıqlı səhərində...

Cahangir müəllimin sözünün ləngəri var,
Dədə yollu hikməti, mövqeyi, səngəri var...

Zabil Pərviz bir Günəş, doğulub Gündoğarda,
Bu dünyaya gəlib ki, qaraları ağarda...

Həyatı Muğam üstə köklənib Zabul olub,
Ağrı acı içindən diklənib Zabil olub...

Dədəni mürşid bilib sözündə, söhbətində,
Müridlik yolu tutub dünya həqiqətində...

Gündoğar bir çəməndir burda güllər açılmış,
Dilə gəlib bülbüllər, susqun dillər açılmış...

Əbil də bu çəmənin əbədi solmaz gülü
Bir sevda türküsünün ədəbi solmaz gülü...

### *III hissə*

Göy gurladı, sel gəldi mənim könül bağıma,
Yarpaqlar pərən-pərən, budaqlar sınıq-sınıq.
Yel əsdi, çöl üstümdən, gün döydü hər yanıma,
Torpağım cadar-cadar, yovşanım yanıq-yanıq.

Vüsalım ayrılığın həsrətinə bələndi,
Qönçə-qönçə arzuma dərdli qarlar ələndi.
Zalımlığın bir işi məzlumluğa güləndi,
Tumurcuq diləklərim ağladı qınaq-qınaq.

Sinəmi kitab bildim anlayana, duyana,
Yana-yana gəlmişdim Qarabağdan Muğana.
Ürəyimdən qorlandı qığılcımlar hər yana,
Gündoğarın bağrına köz düşdü yanaq-yanaq.

Çox gözlədim sevgimə qucaq açan qolları,
Döndüm dərdli bülbülə, vətən bildim kolları.
Ustadım könlüm oldu, keçdim çətin yolları,
Həyatda nə çox gördüm imtahan, sınaq-sınaq.

Zalım fələk bəxtləri çeynəyirsən, yeyirsən,
Bir əyri düzəltmirsən, düzləri də əyirsən.
Soruşdum Xələflidən gərdişə nə deyirsən,
Dedi ki, bu dövrana baxıram qonaq-qonaq.

Göy üzündə gur yanıb tez axan ulduzlar var,
Qaranlıqlar içində yaşayan gündüzlər var.

Əbilin taleyinə bənzərlər də az deyil,
Bir kimsə deyə bilməz bu azlar da yaz deyil.

Hərəsi bir baharın tər-çiçəyi, gülüdür,
Hərəsi bir bağçanın oxuyan bülbülüdür.

Mənim könül dünyamın çəkilməyən ahı var,
Kədərin şahzadəsi, qəmlərin padşahı var.

Ulduz-ulduz parlayan, parlayıb da sönən var,
Sözündə, hikmətində, işığında dönən var.

Gözlərimin önündən keçənlərə baxıram,
Qanlı çaya qarışıb xəyalımla axıram.

Əbil Kürə qarışıb göy Xəzərə axırdı,
Fikir, xəyal içində gələcəyə baxırdı.

Ərtoğruldan qalanı mən yazaram deyirdi,
Müşfiqin həyatını düz yazaram deyirdi.

Bəlkə tanrı göndərib söz əkim, fikir əkim,
Yarımçıq ömürlərin ağrısını mən çəkim.

Atama ad verilib, Etibar evi qursun,
Könüllərdən nişanə yurda keşikçi dursun.

Mən də ata adının yolunu düz saxlayım,
Dədəmdən bizə qalan ocaqda köz saxlayım.

Əbili axarında aparır düşüncələr,
Gül eşqinə bülbüllər nə durar, nə dincələr.

Əbilin varlığında dünyalar üz-üzədir,
Mənsur Həllac, Nəsimi onunla göz-gözədir.

Sührəverdi edamda - qürurda şah dayanıb,
Əqidəsi yolunda al-qanına boyanıb.

Dinləyirəm Əbilin ruhundakı səsini,
Sinəsində çırpınan bülbülün nəğməsini.

"Mən işığam" - deyir o, - Sührə verdi işığı,
Çıxmışdım nur bağına, könül dərdi işığı.

Əqidəni, inamı qoruyan da əsgərdir,
Sağlam fikir, düşüncə özü də bir səngərdir.

Bu yolda əsgər olmaq şərəfdir söz yoluna,
Od içindən keçərəm, sadiqəm köz yoluna.

Məni axtaran tapar, Mənsur Həllac izində,
Ayrıca işığım var, bu inci dənizində.

Nəsimidə mən varam, Nəimi də mən varam,
Sührəverdi eşqində sadiqəm, etibaram.

Gəlmişəm bu dünyaya öz türkümü oxuyum,
Geyinim öz xirqəmi, öz kürkümü toxuyum.

Dinlədikcə Əbili varlığım köz-köz olur,
Məni yandırıb-yaxan közlərim söz-söz olur.

Sözü odlar daşıyan ürək oda yanmazmı,
Özü vulkan yatağı, tənha ada yanmazmı?

Çağlayan bir ürəklə Müşfiq gəlir sözündə,
Qəlbi oda tutulub, alovlanır közündə.

Sındırılan sazının simləri qan ağlayır,
Müşfiqin hər sözündə dil yanır, can ağlayır.

Əbil xəyalən gəzir Müşfiqin odasını,
Seyr edir Sayadlarda tənhalıq adasını.

Burda Xızı dağları tarı alıb döşünə,
İndi qınaq eləyir dünyanın gərdişinə.

Muğanda dədə yolu Əbilə gəl deyirdi,
Könlünü aç dünyaya ürəkdən gül deyirdi.

Dağıldı dünyamızın boz, bulanıq bürküsü,
Oxundu qəlbimizin həzin sevda türküsü.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Gündoğarda duyğulu ömürlər yaşanırdı,
Yarımçıq ömürlər də ruhlarda daşınırdı.

Keçir Asəf Zeynallı... Bülbül "Ölkəm" oxuyur,
Bir yaralı nəğməkar taleyini toxuyur.

Ərtoğrul Cavid gəlir, taleyi nur içində,
Böyük Turan ruhunu yaşadır qor içində.

Cavidlərin ruhu da qorunurdu Əbildə,
Turanın böyük qəlbi çırpınırdı Əbildə.

Böyük Qıpçaq çölünün yovşan ətri, qoxusu,
Çin oldu Gündoğarda Murad Adcı yuxusu.

Əbilin varlığından Orxon Yenisey axdı,
Suqovuşan üstündə gün doğdu, güney axdı.



Zəlimxanın səsində eşqin nuru çağlayır,
Dədənin sinəsində sevgi Kürü çağlayır.

Dədənin haqq yolundan böyük Anar danışır,
Millətinin yolunda qəlbiyanar danışır.

Söhrab Tahir söz açır Kür üstündə körpüdən,
Ömürlər necə keçir nur üstündə körpüdən.

Vaqif Səmədoğlu da Vurğunu yada salır,
Aybənizin çıxışı həsrəti oda salır.

Dəyişən zamanların qovuşan çağıdır bu,
Şahdağa boy göstərən Savalan dağıdır bu.

Mənim də sözüm oldu, söylədim pir Dədəyə,
Açdım könül varımı, pay verdim sirr Dədəyə.

Əbili bu məclisdə seyr edir, oxuyurdum,
Sözə məcnun könlünü qəlbimdə toxuyurdum.

Dədə nuru, işığı, söz Əbilin varıydı,
Gördüyü bu mənzərə könül iftixarıydı.

## *IV hissə*

Gəlirsən, ey kədər, bir dayan görüm,
Qabaqda kövrəlmiş bir ürək də var.
Açılmış yelkən var dərya üzünə,
Sahilə yan alan bir dilək də var.

Həsrəti yandırar, gözdə yağ qalmaz,
Yazı gül gətirsə dağda dağ qalmaz,
Qələm sınıq düşər kağız ağ qalmaz,
Durnalardan qalan bir lələk də var.

Ürəklər duyğunu dilə çatdırar,
Aya olmasa da, ilə çatdırar,
Bilirəm səsimi elə çatdırar,
Ruhumdan çağlayan bir külək də var.

Ulu türkün sirləri uyuyan hər bucağı,
İşığına bələyir yanan fikir ocağı.

Pazırıq xalçasının ilmələri, naxışı,
Tarixə bir açardır ulu türkün baxışı.

Qarabağda - Bərdədə toxunan bir əsərdir,
Tarixi həqiqəti yazılara kəsərdir.

Neçə min il yaşayıb buzlaqda inadıyla,
Tarixə şahid durur, öz "Pazırıq" adıyla.

Türk əməni uyuyub Pazırıq kurqanında,
Qəhrəmanlıq genini daşıyıb öz qanında.

Dağılır fikirlərin boz-bulanıq bürküsü,
Dil-dil ötür, oxuyur Əbil sevda türküsü.

Əbilin timsalında istedad parlayırdı,
Sanasan göy üzündən Ay nurunu yayırdı.

Onun Turan sevgisi böyük çöldən keçmişdi,
Ulu türkə sevdanı Buta yolu seçmişdi.

Əbil türkün varını yığmışdı gözlərinə,
Varlığından keçirib düzürdü sözlərinə.

Böyük türkün köçündə səyyahdır bu gənc özü,
Yoluna işıq salır qəlbinin odu, közü.

Uzaq Şərqdən qərbəcən uzanan yolu görsən,
Əbil də bir əsgərdir bu yollarda, görərsən.

Ey könlüm, nə deyirsən, yol uzun, ömür qısa,
Qaranlığa sinə gər, gün doğar, batma yasa.

Amurdan üzü bəri Aralı dolanıb gəl,
Bir gənc türkün eşqinə qəlbinlə qalanıb gəl.

Çölün fikir çəməni - kağızda yazı gülür,
Təzə fəsil içində Əbilin yazı gülür.

# BİR BÜLBÜLÜN TÜRKÜSÜ...

## *(Gənc şərqşünas Əbilin xatirəsinə...)*

Gündoğarda boz çölün türk ruhu çiçəklənir,
Köhlənlərin saçağı, yalmanı küləklənir.

Əbili böyüdürdü çölün yovşan qoxusu,
Ruhuna meydan verir sonsuz kövşən qoxusu.

Şərqin fikir aləmi köçürdü çöl üstünə,
Böyük Turan dünyası çıxırdı yol üstünə.

Dədə evi, ocağı sevdalar qucağıydı,
Dədə evi Muğanın ən isti bucağıydı.

Turanın karvan yolu Muğanda dayanırdı,
Könüllər Gündoğarda işığa boyanırdı.

Söz bitirən qələmlər ocaqdan od alırdı,
İşığa tapınanlar işıqla ucalırdı.

Bəxtiyar Vahabzadə, Məmməd Araz gəlirdi,
Dədənin söz bağına çiçəkli yaz gəlirdi.

Əbilin gənc qəlbində tapınaqlar yer alır,
Əfsanələr yaddaşda naxış tutur, vər salır.

Sevdalı bir bülbülün nəğməsi dillənirdi,
Bir könül qönçəsi də açılır, güllənirdi.

Ötürdü türküləri vaxt axarı boyunca,
Qönçələr şeh içirdi nəğmələrdən doyunca.

Kür, Xəzər ocağında dədənin səksən ili,
Min ilə bərabər tut, nizama çəksən ili.

Tədbirin baş sözçüsü Zəlimxandır burada,
Ulu tarix canlanır, cərgələnir sırada.

Nizamidən bu yana ruhları salamlayır,
Şəhriyar bu salamı Təbrizə, Ərkə yayır.

Hər çətin yönünə durar bir asan,
Müdrik deyil doğru, düzə hər susan,
Dünyadan əbədi ayrılmır insan,
Bir "gedək" var isə, bir "gələk" də var.

Dünyadan nə aldı tamah umanlar,
Min yerə yozuldu azğın gümanlar,
Qoca Xələfliyə neylər dumanlar,
Bəxtini qoruyan bir mələk də var.

Hər kəsin ömür yolu, kitabından başlanır,
Gücündən, qüdrətindən, öz tabından başlanır.

Türkün sevda türküsü sənin Çöl kitabındır,
Tarixə işıq salan dönməz yol kitabındır.

Sənin Əbil adında türkün sözü göründü,
Yazında, kitabında türkün özü göründü.

Hər yazı gənc qəlbinin odudur, atəşidir,
Gündoğardan boy verən işığı, günəşidir.

Böyük çölün ruhunu yazısında görk edən,
Yenilməz bir əsgərdir qalasını Ərk edən.

Milli kimlik gücü var bu yurdun hər daşında,
Orxon-Yenisey boyu yaşayan yaddaşında.

Tarixdən qan daşıyır Əbilin damarları,
Gətirər Hun qüdrəti, dağıdar hasarları.

Onun sözü, yazısı Atillanın izidir,
Məramı türk ruhunun sonuncu dənizidir.

Zamanın Səyavuşu, gözlərinin qarası,
Göynəyir varlığında Alp Ər Tonqa Yarası.

Qaraqorum səhrası - Altaydan üzü bəri,
Əbilin düşüncəsi - Turanın üfüqləri.

Gündoğardan doğuya sözündən körpü salır,
Sevgisi qanad açır, uzun yollar qısalır.

Əbilin könül evi Yəsəvi ocağıdır,
Ruhu türkü çağıran bir sevda qucağıdır.

Əbil görür, duyurdu zamanın nəfəsini,
Haray çəkən bozqurdun eşidirdi səsini.

Çağır türkü ruhuna, isti kürkün olacaq,
Zəlimxan doğru deyir, dünya türkün olacaq.

Öz külündən dirilən Simurqu axtarırdı,
Gizlədilmiş tarixin sirlərinə varırdı.

İnadla yeriyirdi elmin çətin yolunda,
Döyüşçü əzmi vardı, onun mətin yolunda.

"Nə mutlu türküm" desən, dağ əriyər önündə,
Aydın səhər açılar Əbilin söz yönündə.

Misirdən Fəratacan şumeri soraqladı,
Axtardı aram-aram, kitablar varaqladı.

Tarixi yaradana "Xalqım, türküm" deyirdi,
"Suallara cavabım mənim görküm" deyirdi.

Yozulmayan yuxular açırdı sirlərini,
Türküsü dağıdırdı qəmini, kədərini.

Çağrı bəy qılınc çəkir, Ərtoğrul Qazi gəlir,
Dağılır, çökür Bizans, tarixin yazı gəlir.

Bozqurdu yaşadırdı, ocağında, közündə,
Onun odlu gözləri parlayırdı sözündə.

Ərgənəkon - ana qurd çağırırdı "bəri gəl",
Gündoğardan Altaya addım-addım yeri, gəl.

*(Davamı 16-cı səhifədə)*

# BİR BÜLBÜLÜN TÜRKÜSÜ...

## *(Gənc şərqşünas Əbilin xatirəsinə...)*

*(Əvvəli 9-cu səhifədə)*



Türkün gücü, varlığı qəlbində durulurdu,
Əbilin söz sarayı tikilir, qurulurdu.

Gündoğardan boy verən bu gəncin istedadı,
Türk sevdalı nəsilin öz ünvanı, öz adı.

Ocaq-ocaq gəzdiyim yerlərdə köz gəzirəm,
Közərən köz içində odlanan söz gəzirəm.

Bir ocaqdan qalan iz Muğanın Qoltuğudur,
İgid əsgər əlində ucalan qol tuğudur.

Nəsil-nəsil yol gələn Qoltuğun öz izi var,
Qaranlıqlar dağıdan səhəri, gündüzü var.

Yaz günəşi doğulur Muğanın dan üzünə,
Mən də salam verirəm tarixin gündüzünə.

Ey Gündoğar, səninlə yol gəldim illər boyu,
Yaddaşımda qorudum, oxşadım güllər boyu.

Sübh adası, gözünlə açdım necə səhəri,
Köhlənlərin izindən yığdım qəmi, qəhəri.

Yol çəkdim Qarabağdan Gündoğara sözümlə,
Neçə ocaq yerindən od götürdüm gözümlə.

Mən Əbili görürəm dənizin üfüqündə,
Onunla görüşürəm səhərin şəfəqində.

Yanan qəlbi atəşlə işıq salır yazıma,
Çiçək-çiçək açılır payızıma, yazıma.

Bir müdrik Dədə baxır, Muğandan əl eləyir,
Əbilin dastanına “Əlvida demə” deyir.

Dolmuş bulud kövrəlir, Muğana nur ələyir,
Bir könül təşnəsiyəm, ruhuma su çiləyir.

Ayrılıqdan, həsrətdən ütülən var, yanan var,
Bir qönçə boyun bükər yanan güllər içində.

Bülbüllər nalə çəkər, türkülər qan ağlayar,
Qolları qanad-qanad sınan güllər içində.

Dünya mənlə qocadır, dünya sənlə ucadır,
Bizim könül evimiz bir qapı, bir bacadır,
Yaz ağzı geri dönən sazaqlar diş qıcadı,
Sözlərim dil-dil əsdi donan güllər içində.

Sinəmdə bənövşələr boylanar üzə çıxar,
Lalələr ayaq açar təpəyə, gəzə çıxar,
Bir zərif çiçək bitər, qönçədən təzə çıxar,
Ləçək-ləçək qəlbimə qonan güllər içində.

İnam, ümid uçdusa, bizə pir də qayıtmaz,
Sirr sahibi getdisə, daha sirr də qayıtmaz,
Məcnun könlüm arama, gedən bir də qayıtmaz,
Qarışar qum selinə sonan güllər içində.

Mürşidi Kamil gələr Nəsimi əsərində,
Qəlbində çıraq yanar eşqinə əsirin də,
Gülər türkün qılıncı hökmündə, kəsərində,
Əcəmə təzim eylər yunan güllər içində.

Zaman-zaman türkümü eşidib də izləyən,
Sözümdən ocaq çatıb ürəyini közləyən,
Bilənsən, bilməyənsən, ey yolumu gözləyən,
Sözümdə işığı gör, qanan güllər içində.

Dünya ömür bazarı, dolacaq, dolmayacaq,
Yenə güllər açacaq, solacaq, solmayacaq,
Xələflidən soruşma, olacaq, olmayacaq,
Yada salan, axtaran, anan güllər içində.

***Əli Rza*** Xələfli

***Aprel-may 2022***